# HEYDƏR ƏLİYEV YENİ, MÜSTƏQİL AZƏRBAYCANIN QURUCUSUDUR

***Azərbaycanın XX əsr tarixinin əlli ildən çox bir dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Respublikanın düşdüyü bu ağır vəziyyətdə Azərbaycan rəhbərliyində mühüm dəyişiklik baş verdi. 1969-cu ildə hakimiyyətə gələn Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə başladı. Heydər Əliyev Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı.***




O, bu quruculuğa hələ 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlməzdən də əvvəl, XX yüzilliyin 40-cı illərindən başlamışdı. Bu illərdə Azərbaycanın hüquq-mühafizə orqanlarında fəaliyyətə başlayan Heydər Əliyev bütün maneələri və çətinlikləri dəf edərək ittifaq dövlətinin - SSRİ-nin Azərbaycanda əsas dayağı olan Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinədək ucaldı. Onun son dərəcə gərgin və mürəkkəb şəraitdə göstərdiyi səmərəli fəaliyyəti nəticəsində Dövlət Təhlükəsizliyi Komitəsinin xalqımızın düşmənlərindən təmizlənməsi sahəsində çox ciddi addımlar atıldı və ilk dəfə olaraq xalqımızın layiqli övladlarının fəal surətdə təhlükəsizlik orqanlarında işə cəlb olunmasına başlandı.

XX əsrin uzaq 20-30-cu illərində ermənilərin və qeyri millətlərin nümayəndələrinin yuva saldığı və xalqımıza qarşı qanlı repressiyalar həyata keçirmiş Dövlət Təhlükəsizlik Komitəsinin azərbaycanlılaşdırılması və xalqımızın düşmənlərindən təmizlənməsi kimi son dərəcə çətin və şərəfli işə ilk dəfə - sovet rejiminin ən güclü vaxtında məhz Heydər Əliyev başladı.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi həmin illərdə bütün maneələri dəf edərək Sovet hökumətinin Azərbaycanın hərtərəfli inkişafını təmin edən xüsusi qərarlar qəbul etməsinə nail oldu. Nəticədə 1970-1985-ci illər Sovet Azərbaycanının tarixinə, bütün varlığı ərzində, ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi.

Bu gün müxalif mövqedə durmasından, hansısa bir səbəbdən hakimiyyətdən incik düşməsindən, mühacir həyatı yaşamasından asılı olmayaraq müstəqilliyinin ilk illərində böyük iqtisadi böhran yaşayan, parçalanmaq təhlükəsi ilə üzləşən, totalitar dövlətlərin əhatəsində yerləşməklə erməni işğalına dəstək verən həmin totalitarların mürtəce siyasətlərinə məruz qalan gərgin bir zamanda Azərbaycan dövlətçiliyini xilas edən Heydər Əliyev siyasətini danmaq, müxtəlif bəhanələrlə siyasi don geyindirib gözdən salmaga çalışmaq ən azından Azərbaycan tarixinə ləkə gətirməyə köklənən nankorluq və siyasi mürtəce kimi qiymətləndirilə bilər.

Məhz yeni Konstitusiyanın qəbulundan sonra "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının müddəaları ilə milli, yerli xüsusiyyətlər uzlaşdırılmaqla bələdiyyələrin, bələdiyyə üzvləri və qulluqçularının statusunu, yerli özünüidarənin maliyyəsinin əsaslarını, bələdiyyə əmlakının hüquqi rejimini və bir sıra başqa mühüm münasibətləri tənzimləyən qanunvericilik aktları qəbul edilmişdir. Bunların sırasında "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyə maliyyəsinin əsasları haqqında" və "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası qanunlarını və bu qanunların tətbiqi barədə imzalanan fərmanları göstərmək olar.

Azərbaycan Respublikası ərazisində ilk bələdiyyə seçkiləri keçirilənədək yerli özünüidarə ilə bağlı əsaslı hüquqi baza formalaşdırılmışdı. Bütövlükdə isə Heydər Əliyevin ölkəyə başçılıq etdiyi dövrdə yerli özünüidarəetmə sahəsini tənzimləyən 22 qanun və onlarla başqa normativ hüquqi aktlar qəbul edilib.

Ölkəmizdə ilk dəfə 1999-cu ilin dekabrında keçirilən bələdiyyə seçkilərində 20 min 454 bələdiyyə üzvü seçilərək 2667 bələdiyyə fəaliyyətə başlayıb. Yerli özünüidarəetmə institutunun önəmini yüksək qiymətləndirən Ulu Öndər seçkilərin şəffaf, mütəşəkkil keçirilməsinin təmin olunmasını şəxsi nəzarətində saxlayaraq seçki öncəsi xalqa müraciətində vətəndaşları seçkilərdə fəal iştirak etməyə çağırıb. Hər bir vətəndaşın Azərbaycanda dövlət quruculuğu prosesində, o cümlədən seçkilərdə fəal iştirak etməsini arzulayan dahi şəxsiyyət deyirdi: "Təbiidir ki, seçkidə iştirak etmək, yaxud iştirak etməmək hər bir vətəndaşın şəxsi hüququdur. Ancaq eyni zamanda, hər bir vətəndaş Konstitusiyanın ona verdiyi hüquqdan istifadə etməli, kənarda qalmamalıdır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycan vətəndaşları Azərbaycanda demokratiyanın yaranmasında, dövlət quruculuğu prosesinin yaranmasında indiyə qədər fəal iştirak etdikləri kimi, yerli idarəetmə orqanlarının yaranması üçün keçirilən bələdiyyə seçkilərində də fəal iştirak edəcəklər".

Yerli özünüidarəetməni ölkəmizdə gedən demokratikləşmə prosesinin mühüm bir sahəsi kimi dəyərləndirən ümummilli lider Heydər Əliyev bələdiyyələrlə bağlı dövlət siyasətinin əsas istiqamətlərini də müəyyən edib, onun inkişafına xüsusi diqqət və qayğı göstərib.

Ötən müddətdə ulu öndər Heydər Əliyevin yerli özünüidarəetmənin inkişafı ilə bağlı müəyyən etdiyi siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib, yerli özünüidarəetmə daha da təkmilləşdirilib.

Ölkədəki inkişaf, dünyada baş verən hadisələr, demokratik dəyişikliklər, ictimai həyatın tələbatları bələdiyyələri yeni məqsədlərə, səmərəli fəaliyyətə istiqamətləndirir. Həyata keçirilən mühüm dövlət proqramlarında icra orqanları ilə bərabər bələdiyyələrin vəzifələrinin də müəyyən edilməsi onların fəallığının yüksəlməsinə yeni bir stimul yaradır. Son illər bir çox qanunlara edilmiş dəyişikliklər bələdiyyə torpaqlarından səmərəli istifadə olunmasına, bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsinə, onların mülkiyyətinin, ərazilərinin müəyyənləşdirilməsinə xidmət edir. Ümumilikdə bələdiyyə institutunun cəmiyyətin idarə olunmasında rolunun artırılmasına hərtərəfli şərait yaradır.

Əhalinin bələdiyyələrlə sıx əlaqələrinin qurulması, özünüidarə işlərində onların getdikcə daha fəal iştirak etmələri, bələdiyyə idarəçiliyinə əhalinin maraq və inamının artması Ümummilli Lider tərəfindən seçilmiş yolun düzgünlüyünü və dönməzliyini göstərir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev müdrik siyasəti və qəti iradəsi ilə və qüdrətli Azərbaycan Ordusunun qəhrəmanlığı və xalqımızın həmrəyliyi sayəsində Ermənistanı döyüş meydanında və siyasi müstəvidə ağır məğlubiyyətə uğradaraq əzəli torpaqlarımızı işğaldan azad etməklə Ümummilli Liderin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirmişdir.

Həyata keçirilən sosial-iqtisadi quruculuq və ərazi bütövlüyünün təmini Azərbaycanın daha keyfiyyətli inkişaf mərhələsinə keçməsinə əsaslar yaradıb. Qlobal iqtisadi reallıqlar fonunda yeni strateji dövrdə qarşımızda duran məqsədlərə nail olmaq, bunun üçün uyğun siyasət və islahatlar çərçivəsini formalaşdırmaq məqsədilə dövlət başçısının 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiqlənib. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi, eləcə də işğaldan azad olunmuş ərazilərə böyük qayıdış kimi prioritetlər reallaşdırılmalıdır.

Hazırda qarşıda olan əsas məqsədlərdən biri öz doğma torpaqlarından köçkün düşən insanların yurdlarına qayıdışının, vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasının və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasının təmin olunmasıdır. İşğaldan azad olunmuş torpaqlarımız Azərbaycan Prezidentinin rəhbərliyi ilə yenidən dirçəlir, nəhəng bərpa və quruculuq işləri aparılır, yol, rabitə, enerji və digər infrastrukturlar yaradılır. Bu yolda dövlət başçısının əzmi, siyasi bacarıqları, qətiyyəti çox mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, yerli özünüidarəetmə orqanlarının ölkəmizdə aparılan mütərəqqi islahatların ruhuna uyğun daha səmərəli fəaliyyət göstərməsi üçün tədbirlər də davam etdirilir. Bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin edilməsi üçün bələdiyyə üzv və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə intensiv maarifləndirmə tədbirləri keçirilir. Həmçinin yerli özünüidarəetmənin müxtəlif məsələlərini əhatə edən metodik vəsaitlər və tövsiyələr hazırlanaraq istifadə üçün bələdiyyələrə göndərilir. Bu vəsaitlərdə müvafiq qanunvericiliyin tələbləri izah edilərək, yol verilmiş nöqsanların, qanun pozuntularının aradan qaldırılması və qarşısının alınmasının yolları göstərilir. Toplanan təcrübə və müasir dövrün tələbləri nəzərə alınaraq bu sahəni tənzimləyən qanunvericilik aktları vaxtaşırı təhlil edilərək daha da təkmilləşdirilməsi istiqamətində təkliflər verilir və digər mühüm tədbirlər həyata keçirilir.

Öz həyatını və bütün fəaliyyətini xalqının xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndərin əziz xatirəsi Azərbaycan xalqı tərəfindən daim uca tutulur və ehtiramla yad edilir.

***Habil Həmidov,***
***Binə Bələdiyyəsinin sədri***




# RABİTƏMİZİN İNKİŞAFI ULU ÖNDƏRİN ADIYLA BAĞLIDIR

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdir. Sərəncam çoxəsrlik Azərbaycan tarixində xüsusi mərhələ olan Heydər Əliyev epoxasının mahiyyətinin, hadisələrin və nailiyyətlərin daha əsaslı və sistemli şəkildə şərh edilməsinə, xalqımıza və dünyaya çatdırılmasına şərait yaradır.***

Heydər Əliyev bu mühüm və vacib sahənin respublikamız üçün əhəmiyyətini vurğulayaraq demişdir: "Telekommunikasiya, rabitə, əlaqə böyük əhəmiyyətə malik olan bir sektordur. Bu sektorda bizim nailiyyətlərimiz Azərbaycanın iqtisadi əlaqələrini, insani əlaqələrini, bütün dünya ölkələri ilə əlaqələrini və bütün Azərbaycan Respublikasının həyata keçirəcəyi siyasəti dünya miqyasında bildirməsi üçün çox əhəmiyyətlidir". Ümummilli lider haqlı olaraq qeyd edirdi ki, müasir informasiya-kommunikasiya texnologiyaları sisteminə malik olmayan hər hansı bir dövlətin iqtisadi inkişafından söhbət gedə bilməz.

Azərbaycanda rabitə sisteminin əsas inkişaf dövrü 70-80-ci illəri əhatə edir. Həmin illərdə respublikaya rəhbərlik etmiş ulu öndər Heydər Əliyev bu sahənin inkişafına xüsusi diqqət göstərmişdir.

Azərbaycan milli rabitəsi özünəməxsus zəngin inkişaf yolu keçib. Bildiyimiz kimi, Bakıda telefon rabitəsi 1881-ci ildə yaradılmış, həmin il dekabrın 6-da ilk telefon xətti çəkilmişdir. 1885-ci ilə qədər Bakıda artıq 14 telefon xətti mövcud olmuşdur. Neft sənayesinin inkişafı ilə əlaqədar Avropadan və digər ölkələrdən o dövrün məşhur şirkətləri Bakıya gəlirdilər. Get-gedə inkişaf edərək iri sənaye şəhərinə çevrilən Bakıda telefon şəbəkəsinin yaradılmasına ciddi ehtiyac var idi.

1970-ci il iyun ayının 24-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə "Respublikada rabitə vasitələrinin vəziyyəti və gələcək inkişafı üzrə tədbirlər haqqında" tarixi qərar qəbul edilmişdir. Qərarda Bakı, Sumqayıt, Gəncə şəhərlərində telefon rabitəsinin qeyri-qənaətbəxş olduğu, bir çox rayon mərkəzlərində hələ də əllə qoşulan köhnə telefon stansiyalarının fəaliyyət göstərdiyi sahələrin cəmi 25 faizinin telefonlaşdırıldığı və digər geriliklər qeyd olunmuş, rabitə vasitələrinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi Rabitə Nazirliyinin ən vacib vəzifələrindən biri kimi qarşıya qoyulmuşdur.

Qərarda həmçinin 1971-1975-ci illərdə 16 rabitə qovşağı üçün binaların tikilməsi, ATS binalarının inşa edilməsi, o cümlədən Bakıda hər il bir ATS binasının tikilməsi, ATS avadanlıqlarının alınması və texnoloji avadanlıqların inşası, bütün bunlar üçün lazımi vəsaitin ayrılması və digər mühüm tədbirlərin həyata keçirilməsi öz əksini tapmışdır. Dahi lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində respublikanın rabitə sistemində böyük nailiyyətlər əldə olundu. 1974-1980-ci illərdə təkcə Bakı şəhərində ümumi tutumu 164.400 nömrə olan ATS-in tikilib istifadəyə verilməsi planlaşdırıldı və həyata keçirildi. Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci mərhələsini əhatə edən həmin dövrdə rabitənin inkişafı üzrə bir sıra qərarlar qəbul edilmişdir.

1994-cü ilin fevralında Heydər Əliyev qardaş Türkiyə Respublikasına səfəri zamanı Türkiyə telekommunikasiya şirkətlərinin işi ilə şəxsən maraqlanmış, ölkənin ən böyük telekommunikasiya avadanlıqları istehsal edən "NETAŞ" şirkətində olmuş və Türkiyə telekommunikasiya şirkətləri ilə Azərbaycan arasında iş birliyi qurulmasını tövsiyə etmişdir. Nəticədə, Türkiyənin "NETAŞ" və "TELETAŞ" şirkətləri ilə geniş əməkdaşlıq əlaqələri qurulmuş və Bakının telefon şəbəkəsinin elektronlaşmasında əsaslı işlər görülmüşdü. 1993-2003-cü illər Bakı şəhərində və Bakıətrafı qəsəbələrdə 450 min nömrə rəqəmli elektron telefon stansiyaları tikilərək istifadəyə verildi. Bununla da Bakının bütün kənd və qəsəbələri telefonlaşdırıldı. 2002-ci ildə isə paytaxtda telefon növbəliliyi ləğv edildi.

1995-ci il dekabrında Bakı şəhərində Azərbaycanda ilk beynəlxalq telefon stansiyasının, habelə yenidən qurulmuş Şəhərlərarası Telefon Stansiyasının açılışı oldu. Azərbaycanda yeni texnologiyaların tətbiqinə, telekommunikasiya infrastrukturunun modernləşdirilməsinə start verildi, ilk elektron ATS-lər quruldu. Bütün bunlar Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin ilk illərində rabitənin inkişafına göstərdiyi diqqətin əyani nümunələridir.

Müstəqil Azərbaycanın reallıqlarını dünya ictimaiyyətinə çatdırmaq, həmçinin blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının əhalisinin milli televiziya proqlamlarını seyr edə bilməsini təmin etmək məqsədilə 1996-cı ildə AzTV-1 milli televiziya proqramı TÜRKSAT süni peyk vasitəsilə yayımlanmağa başladı. Əsası 1981-ci ildə Heydər Əliyev tərəfindən qoyulan teleqüllənin tikilib başa çatdırılması da məhz onun səyləri nəticəsində reallaşdı və 1996-cı ildə teleqüllə istifadəyə verildi. Azərbaycanda dünya standartları səviyyəsində teleradio yayımını təmin etmək üçün müvafiq qanunvericilik bazası yaradıldı və tədbirlər görüldü.

Bu gün Azərbaycanın İKT sahəsindəki fəaliyyəti məhz ümummilli lider Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi strateji xətt üzrə uğurla davam etdirilir.

***Vəli Məmmədov,***
***Xəzər rayon Telefon qovşağının rəisi***

# DGK YANINDA İCTİMAİ ŞURAYA NAMİZƏDLƏRİN İRƏLİ SÜRÜLMƏSİ BARƏDƏ ELAN




***Dövlət Gömrük Komitəsinin 13 sentyabr 2023-cü il tarixli sərəncamı ilə Komitə yanında İctimai Şuraya seçkilərin təşkili məqsədilə Seçki Komissiyası yaradılmışdır.***

İctimai Şura üzvlüyünə seçkilərin təşkili məqsədilə yaradılmış Seçki Komissiyasının qərarına əsasən namizədlərin irəli sürülməsi və qeydiyyatı üçün müddət 28 sentyabr 2023-cü il tarixdən başlayaraq 20 iş günü müddətində müəyyən edilmişdir. Müraciətlər üzrə qeydiyyat 25 oktyabr 2023-cü il saat 18:00-da başa çatır. Seçki Komissiyasının qərarı ilə İctimai Şura üzvlərinin say həddi 9 nəfər olaraq müəyyən edilmişdir.

İctimai Şuraya üzv olmaq istəyən namizədlərə dair tələblər:

İrqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, gömrük işi sahəsində təcrübəyə və ya biliyə malik Azərbaycan Respublikasının fəaliyyət qabiliyyətli vətəndaşı üzv ola bilər.

Hər bir vətəndaş cəmiyyəti institutu, müvafiq qanunvericiliyə uyğun olaraq İctimai Şuranın üzvlüyünə yalnız bir namizəd irəli sürməlidir.

Namizədliyin irəli sürülməsi barədə müraciət gomruk.ictimaisura2023@gmail.com elektron poçt ünvanına göndərilməlidir.

Vətəndaş cəmiyyəti institutu müraciətinə namizəd barədə aşağıdakı sənədləri əlavə etməlidir:

- şəxsiyyət vəsiqəsinin surəti;
- namizədin tərcümeyi-halı;
- namizəd hər hansı bir vətəndaş cəmiyyəti institutunun üzvü olduğu halda həmin üzvlüyü təsdiq edən sənədin surəti;
- namizədin Dövlət Gömrük Komitəsinin fəaliyyət istiqamətləri ilə əlaqəli sahələr üzrə təcrübəyə və ya biliyə malik olmasını sübut edən sənəd (olduğu halda əmək kitabçasının surəti, əmək kitabçası olmadıqda isə məlumatı təsdiqləyəcək digər sənədlər).

Tələb olunan sənəd və məlumatlardan əlavə vətəndaş cəmiyyəti institutları tərəfindən namizəd barədə geniş məlumat verən digər sənəd və məlumatlar da təqdim edilə bilər.

Seçki Komissiyasının üzvləri barədə məlumatı aşağıdakı keçid vasitəsilə əldə edə bilərsiniz:

Dövlət Gömrük Komitəsi yanında İctimai Şuraya seçkilərlə bağlı suallarla əlaqədar vətəndaş cəmiyyəti institutları Seçki Komissiyasına iş günləri saat 09.00-dan 18.00-dək müraciət edə bilərlər. Telefon nömrəsi: (012) 404-22-00 (daxili 22-14) E-poçt ünvanı: gomruk.ictimaisura2023@gmail.com